# THE ROLE OF ANIMATED FILMS IN THE DEVELOPMENT OF PRE-SCHOOL CHILDREN

**Vusala Aliyeva**

Azerbaijan State Pedagogical University,
Ph.D. in Pedagogy
E-mail: vusale2000@gmail.com
https://orcid.org/0000-0003-2998-0543

**Abstract.** The article discusses the history of famous cartoons, their development path, and their positive and negative impacts on children development. It analyzes the subconscious effects of cartoons on children psychology, which are created on various topics. It is noted that cartoons can benefit children by instilling national and moral values, contributing to their education, cognitive, linguistic, and social-emotional development. However, they can also have negative effects on upbringing. Therefore, parents and adults should prevent children from watching cartoons that can negatively impact their psychology or even pose health risks (aggression, cruelty, violence, etc.). It is assumed that cartoons, as an educational tool, can form negative traits in children if they are not age-appropriate. There are also many cartoons that focus on national and moral values (friendship, kindness, patriotism, respect for parents and elders, love, etc.). Some cartoons are educational in nature and contribute to children acquisition of new knowledge and skills. The positive qualities instilled in children by cartoons created on these topics are analyzed in detail in the article.
**Keywords:** preschool education, preschool children, positive and negative aspects of cartoons, child development, parental control.

**DOI:** 10.30546/2709-2488.4.2024.032
**To cite this article:** Aliyeva V. (2024). The role of animated films in the development of pre-school children. *Journal of Preschool and Primary Education*, Vol. 249, Issue IV, pp. 69-77.
**Article history:** received – 03.10.2024; accepted – 05.11.2024.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFINDA CİZGİ FİLMLƏRİNİN ROLU

**Vüsalə Əliyeva**

Azərbaycan Dövlət Pedaqoji Universiteti,
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: vusale2000@gmail.com
https://orcid.org/0000-0003-2998-0543

**Annotasiya.** Məqalədə məşhur cizgi filmlərinin yaranma tarixi, keçdiyi inkişaf yolu və onların uşaqların inkişafına mənfi və müsbət təsirlərindən bəhs edilir. Müxtəlif mövzularda çəkilmiş cizgi filmlərinin uşaq psixologiyasına göstərdiyi şüuraltı təsirlərin nələrdən ibarət olduğu məqalədə geniş şəkildə izah olunur. Qeyd edilir ki, cizgi filmləri uşaqlara milli-mənəvi dəyərlər aşılamaqla, onların maariflənməsində, koqnitiv, linqvistik, sosial-emosional inkişafında faydalı olmaqla yanaşı, tərbiyəsinə mənfi təsir də göstərə bilər. Buna görə də valideynlər və böyüklər tərəfindən uşaq psixologiyasına mənfi təsir göstərə biləcək, hətta sağlamlıqları üçün təhlükə yarada biləcək (aqressiya, qəddarlıq, zorakılıq və s.) cizgi filmlərini izləməyin qarşısı alınmalıdır. Ehtimal olunur ki, tərbiyə vasitələrindən biri olan cizgi filmləri uşaqların yaşına uyğun olmadığı halda onlarda mənfi xüsusiyyətlər formalaşdıra bilər.

Milli-mənəvi dəyərlərin (dostluq, xeyirxahlıq, vətənpərvərlik, valideynlərə və böyüklərə hörmət, sevgi və s.) üstünlük təşkil etdiyi mövzularda da cizgi filmləri kifayət qədər çoxdur. Bəzi cizgi filmləri maarifləndirici xarakterli olub, uşaqların yeni bilik və bacarıqlara yiyələnmələrinə təsir göstərir. Bu mövzularda çəkilmiş cizgi filmlərinin uşaqlara aşıladığı müsbət xüsusiyyətlər məqalədə ətraflı şəkildə təhlil olunmuşdur.

**Açar sözlər:** məktəbəqədər təhsil, məktəbəqədər yaşlı uşaqlar, cizgi filmlərinin mənfi və müsbət tərəfləri, uşaq inkişafı, valideyn nəzarəti.

**DOI:** 10.30546/2709-2488.4.2024.032
**Məqaləyə istinad:** Əliyeva V. (2024). Məktəbəqədər yaşlı uşaqların inkişafında cizgi filmlərinin rolu. «*Məktəbəqədər və ibtidai təhsil*», № 4 (249), səh. 69-77.
**Məqalə tarixçəsi:** göndərilib – 03.10.2024; qəbul edilib – 05.11.2024.

## Giriş / Introduction

Hazırkı dövrdə uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün müraciət etdikləri ilkin vasitə cizgi filmləridir. Uşaqlara izləmələri üçün təqdim edilən cizgi filmləri onların inkişaf səviyyəsinə və yaş xüsusiyyətlərinə nə dərəcədə uyğundur? Eyni zamanda, uşaqların izlədiyi cizgi filmlərinin hamısı onlara müsbət təsir göstərirmi? Günümüzdə bir çox cizgi filmləri vardır ki, onlar heç də məktəbəqədər yaşlı uşaqlar üçün faydalı deyildir. Bu cizgi filmləri uşaqların inkişaflarına zərər vurur. Ona görə də günümüzdə uşaqların izləmələri üçün cizgi filmi seçərkən həmin cizgi filminin onların yaş, anlaq və inkişaf səviyyələrinə uyğun olmasına, vizual effektlərinin nə dərəcədə düzgün olduğuna, hansı mənəvi keyfiyyətləri aşıladığına diqqət yetirməliyik [Abbasov, A., Əlizadə, H., 2000].

Uşaqların cizgi filmləri izləyərək inkişafa doğru addımlamalarını təmin etmək üçün cizgi filmləri və onların təsirləri barədə məlumatlanmalıyıq. Eyni zamanda, gün keçdikcə texnologiyanın inkişaf etməsi ilə əlaqədar olaraq mediaya, sosial platformalara çıxışımızın daha da asanlaşması bu problemi ikiqat aktual edir. Artıq demək olar ki, hər bir evdə internetə və sosial platformalara rahat çıxış var. Buna görə də uşaqlar özləri istədikləri cizgi filmlərini ekrana gətirə və ona istədikləri qədər baxa bilərlər. Bu rahatlıq uşaqlarımızı inkişafa aparmaqla yanaşı, onları uçuruma da sürükləyə bilər.

## Əsas hissə / Main part

Cizgi filmi dünyada uşaqlar arasında ən çox maraq göstərilən film janrıdır. Məşhur cizgi filmlərinin bir çoxu 1990/2000-ci illərdə yaradılmış və yarandığı gündən müasir dövrümüzə qədər cizgi filmləri və kompüter animasiyaları əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Personajları canlandırmaq, əl ilə çəkilmiş dizaynlardan kompüterdə yaradılan vizuallara qədər inkişaf edərək böyük dəyişikliklərə məruz qalmışdır. Cizgi filmləri öz yumorları, təxəyyülləri və hekayələri ilə hər yaşda olan tamaşaçıları valeh edərək populyarlıq qazanmış, həm böyüklər, həm də uşaqlar tərəfindən sevilmişdir [Mursaqulova, R., Cəmilzadə, S., 2000].

Kinematoqrafiyanın əsas növlərindən biri olan animasiya filmləri, kinonun fərqli bir janrı kimi inkişaf etmişdir. Cizgi filmlərinin yaranma tarixi təqribən 100 il əvvələ təsadüf edir. Bu günə kimi ilk cizgi filmini kimin çəkdiyi haqqında mübahisəli fikirlər davam etməkdədir. Lakin əsas fikirlər aşağıdakı 3 kateqoriya üzərində cəmlənir:

- amerikalı karikaturaçı Stüart Blektonun çəkdiyi "Komik üz şəkilləri" (1906-cı il);

- müəllifinin Stüart Blekton olduğu "Pərili otel" (1907-ci il);
- fransız animatoru Emili Kohl tərəfindən çəkilmiş "Fantazmaqoriya" ("Xəyal") (1908-ci il) [https://qebulol.az/cizgi-film].

XX əsrin əvvəllərində, xüsusilə Amerika və Fransada cizgi filmlərinin teatr nümayişləri əsasında təqdim edilməsinə başlanmışdır. Bir çox animasiya studiyaları da bu dövrdə yaradılmışdır. 1908-ci ildə əllə çəkilmiş "Fantazmaqoriya" cizgi filmi, film tarixçiləri tərəfindən ilk cizgi filmi olaraq qəbul edilir.

Azərbaycanda ilk cizgi filmi olan "Abbasın bəlası" 1938-ci ildə çəkilmişdir. Bu qısametrajlı film, yerli incəsənətin inkişafında mühüm addım hesab olunur. "Abbasın bəlası" Azərbaycanda cizgi filminin əsaslarını qoydu və yerli kinematoqrafiyaya yeni bir istiqamət verdi [https://qebulol.az/cizgi-film].

Hazırkı dövrdə müasir cizgi filmlərinin uşaqların emosional vəziyyətinə necə təsir etməsi alimləri çox narahat edən mövzuya çevrilmişdir. Araşdırmalara əsasən, uşaqların cizgi filmləri ilə ilk tanış olduğu yaşda azalma, lakin onlara baxmağa sərf olunan vaxtın artma tendensiyası müşahidə edilir [Mursaqulova, R., Cəmilzadə, S., 2000]. Qeyd etmək lazımdır ki, uşaqlar cizgi filmlərinə iki yaşından baxmağa başlayırlar və onların cizgi filminə baxma müddəti orta hesabla gündə 4 saatdan çox olur. Beləliklə, məlum olur ki, uşaqlar çox kiçik yaşlarından məlumatı kifayət qədər böyük miqdarda zaman sərf edərək qəbul edirlər. Məktəbəqədər yaşlı uşaqlar üçün cizgi filmlərinə baxmaq adi bir fəaliyyətə çevrilir və vərdiş halına gəlir. Bu, uşağın psixi sağlamlığına, şəxsiyyətinə və digər insanlarla münasibətlərinə təsir göstərə bilər. Ona görə də  bu problem kimi aktuallıq kəsb edir.

Cizgi filmləri uşaqlarda müəyyən davranış standartları, həyat təcrübəsinin formalaşmasına kömək edir, eyni zamanda onların mühüm bacarıqlara yiyələnmələrinə və sosiallaşmalarına imkan yaradır. Qeyd etmək lazımdır ki, animasiyaların uşaq psixologiyasının formalaşmasında təsirləri olduqca böyükdür. Belə ki, cizgi filminin məzmunu uşağın psixikasına mənfi təsir göstərə bilər. Çünki bir çox filmlərin ayrılmaz hissəsi kimi yanlış dəyərlərin formalaşmasına səbəb olan zorakılıq, döyüşlər kimi aqressiv məzmun nümunələri çox zaman cizgi filmlərində də yer alır. Beləliklə, cizgi filmlərinin məktəbəqədər yaşlı uşaqlar üçün faydası şübhə doğurur, çünki heç də bütün valideynlər uşaqların izləməsi üçün keyfiyyətli məzmun seçmirlər. Valideynlərin uşaqların izləmələri üçün necə cizgi filmləri seçdiklərini bilmələri olduqca vacibdir, çünki tərbiyə prosesində kütləvi informasiya vasitələrinin məhsulları mühüm rol oynayır. Psixoloqların fikrincə, doğrudan da cizgi filmlərinin uşaq psixologiyasına təsirləri çoxdur. Müsbət təsirlər ondan ibarətdir ki, uşaqlarda dinamiklik, çeviklik yaradır. Məsələn, "Tom və Ceri" cizgi filmi uşaqlarda yumor hissini gücləndirir. Əgər uşaq animasiya filminə baxır və orada döyüş səhnələri görürsə, onda mütləq şəkildə aqressiya

yaranır. Həmin aqressiya uşağın şüuraltısına daxil olur. Münbit şərait yarandıqda aqressiya daha kəskin şəkildə ortaya çıxır.

Ümumiyyətlə, mütəxəssislərin fikrincə, uşaqlar üçün nəzərdə tutulmuş ssenarilər yazılarkən psixoloqla məsləhətləşmək daha doğrudur. Uşaqlarda psixoloji gərginliyin yaranmaması üçün filmlər mütləq uşaqların yaş xüsusiyyətlərinə uyğun çəkilməli, milli-mənəvi və mental dəyərlər nəzərə alınmalıdır. Mənfi obraz elə şəkildə təqdim edilməlidir ki, onun cəzası da aqressiyaya səbəb olmasın. Uşaqlar üçün çəkilən filmlərdə qəddarlıq, qan olmamalıdır. Təəssüf ki, bu cür filmlər həddindən artıq çoxdur. Belə cizgi filmlərini izlədikdən sonra uşaqlarda psixoloji gərginlik hallarının baş verməsi müşahidə olunur [Həsənov, A., 2000].

Müasir cizgi filmlərində artıq ənənəvi hal alan bir sıra xüsusiyyətlər var ki, onlar uşaqların psixoloji inkişafına mənfi təsir göstərir. Bu xüsusiyyətlərə aşağıdakıları aid etmək olar:

- müasir cizgi filmlərində aqressivlik və zorakılığın həddindən artıq olması;
- döyüş və münaqişə səhnələrinin kifayət qədər çox və açıq-aydın şəkildə təqdim olunması;
- qəbiristanlıqların və qəbirlərin göstərilməsi, ölüm səhnələrinin təqdim olunması;
- xeyirlə şər arasında aydın sərhədin olmaması və personajların qeyri-etik, düzgün olmayan davranışlarının cəzasız qalması;
- personajların qeyri-müəyyən cinsi xüsusiyyətlərə malik olması;
- uşaqların cinsi xüsusiyyətlərlə erkən tanışlığı.

Günümüzdə uşaqların izlədiyi bir çox cizgi filmlərində yer alan bu xüsusiyyətlər onların həm psixoloji, həm də fiziki cəhətdən hazır olmadığı funksiyaları meydana qoyduğu üçün təhlükəlidir. Bu, gələcəkdə uşağa mənfi təsir göstərə bilər. Bundan əlavə, animasiyaların çəkiliş prosesində səs diapazonunun və video ardıcıllığının uyğunsuzluğu müşahidə edilir. Təhrif olunmuş qrafika, qəhrəmanların təhrif olunmuş tələffüzü bu cizgi filmlərində diqqəti cəlb edir. Bunlar uşaqların hələ inkişaf etməkdə olan vizual öyrənmə və psixikasını təhlükə altına alır. Eyni zamanda, bu tip cizgi filmlərində cəmiyyətdə baş verən bir çox hadisələr məsxərəyə qoyulur, bu isə hələ tənqidi təfəkkürü inkişaf etməmiş uşağa aydın olmur, onun tərəfindən təbii davranış kimi qəbul edilir. Bu da uşaqlarda davranış pozuntusuna zəmin yaradır [Bekman, S., 1990].

Cizgi filmlərinə baxmaq uşaqlar üçün gündəlik vərdiş halına gəlib. Bir çox araşdırmalar göstərir ki, valideynlər övladlarını cizgi filmlərinə baxmağa sövq edirlər, buna görə də cizgi filmləri uşaqların həyatında canlı oyun prosesini əvəz edir. Qeyd etmək lazımdır ki, kiçik yaşlarından günün çox hissəsini cizgi filmlərinə baxmaqla keçirən uşaqların nitqində ləngimə olur və onlar böyüdükcə sosi-

allaşmaqda uğursuz olan, assosial bir şəxsiyyətə çevrilirlər.

Cizgi filmlərinin uşaqların inkişafına göstərdiyi təsirlərə nəzər salaq:

***1. Cizgi filmləri uşaqların kəşf etmək və müşahidə bacarıqlarının inkişafı üçün faydalıdır.*** Təbii ki, cizgi filmi personajları uydurmadır, lakin hər bir personajın arxasında gizlənən mesaj və niyyət reallığa, faktlara əsaslanır. Uşaqların cizgi filmlərindən çox şey öyrənə biləcəyini heç kim inkar edə bilməz. Cizgi filmləri uşaqlarda kəşf etmək və müşahidə bacarıqlarını inkişaf etdirir, real həyatı müəyyən aspektdən öyrənmək marağının artmasına kömək edir. Deyə bilərik ki, onlar xəyali dünya vasitəsilə real dünyanı belə kəşf edə bilərlər [Həsənov, A., 2000].

***2. Cizgi filmləri uşaqların fəallaşmasına və tədqiqatçılıq bacarıqlarının inkişafına müsbət təsir göstərir.*** Bəzi cizgi film personajları dahi şəxsiyyət, aktiv uşaq, yaxud araşdırmaçı bir şəxs olaraq təqdim olunur. Əgər uşaq bu cür cizgi filmini izləməyi sevirsə, o, əlbəttə ki, həmin cizgi filmindəki personaj kimi aktiv və ağıllı olmaq istəyəcək, onun kimi davranacaq və onu təqlid edəcək. Deməli, uşağın gördükləri onun şüuruna və davranışlarına təsir edir.

***3. Cizgi filmlərinin uşaqların sağlamlığının qorunması baxımından rolu böyükdür.*** İlk növbədə, cizgi filmi personajları müxtəlif əyləncəli hərəkətləri, fəaliyyətləri ilə uşaqları güldürürlər. Bu, uşaqların cizgi filmlərini sevmələrinin başlıca səbəblərindən biridir. Tədqiqatlar göstərir ki, gülmək qan dövranını tənzimləyən idman növü olduğu üçün insanı sağlam saxlayır. Bu, cizgi filminə baxmağın müsbət cəhətlərindən biridir. Gülüş insan bədənində endorfin istehsalını normada saxlayır, bu da ürək və ağıl üçün vacib əhəmiyyət kəsb edir. Bundan əlavə, müxtəlif cizgi film personajları idmanla məşğul olur və sağlam bədən quruluşuna malik olurlar. Bu isə uşaqları idmanla məşğul olmağa və sağlamlığa təşviq edir. Bildiyimiz kimi, uşaqların əksəriyyəti tərəvəz yeməyi sevmirlər. Cizgi film personajının tərəvəzi bəyənərək yediyini görən uşaq ondan dadmaq istəyəcək və bu da uşağın sağlam qidanlanmasına təsir edə bilər.

***4. Cizgi filmləri uşaqların vizual öyrənmə və rəng tanımaları üçün əhəmiyyətlidir.*** Elmi cəhətdən sübut edilmişdir ki, insan zehni digər öyrənmə üsulları ilə müqayisədə vizual öyrənmədə daha aktivdir. Buna görə də bir çox institutlar seminar və mühazirələrin video dərslər şəklində keçirilməsini təklif edirlər. Bildiyimiz kimi, uşaqlar ətraf aləmdə müşahidə etdikləri, eyni zamanda cizgi filmlərində gördükləri hadisələrə daha tez reaksiya verir, müxtəlif məlumatlar mənimsəyir, rənglərlə tanış olurlar. Vizual öyrənmə prosesində rənglərlə tanışlıq uşaqlarda rəng fərqlərini dərk etməyə, rəsm çəkərkən onlardan düzgün istifadəyə kömək edir.

***5. Cizgi filmləri uşaqlara mənəvi dəyərlər aşılayır.*** Bəzi cizgi filmlərində ailə və dostluq münasibətləri təsvir edilir. Dostluqda sadiq, ədalətli, ailəsinə heç

vaxt yalan danışmayan cizgi filmi personajını sevərək izləyən uşaq da onun kimi davranmağa başlayır. O da dostluqda sadiq, ədalətli, ailə üzvləri ilə mehriban olur, yalan söyləməməyə çalışır.

***6. Cizgi filmləri uşaqların istedadlarının üzə çıxmasına və onların əqli, sosial-emosional inkişafına müsbət təsir göstərir.*** Bəzi cizgi filmlərində personajlar müxtəlif oyunlarda, yarışlarda, viktorinalarda və s. iştirak edir, burada öz istedadlarını, məharətlərini nümayiş etdirirlər. Belə cizgi filmləri uşaqların inkişaf etmələrinə, həmin personajlar kimi fəal olmalarına, vaxtlarını daha səmərəli keçirmələrinə təsir göstərir [Həsənov, A., 2000].

***7. Cizgi filmləri uşaqlara valideynlərinə və böyüklərinə hörmət etmək kimi müsbət keyfiyyətlər aşılayır.*** Cizgi filmində öz sevimli qəhrəmanları və ya personajlarının öz ailəsi ilə hörmətlə davrandıqlarını seyr edən uşaq ailə üzvləri ilə eyni şəkildə davranmağa çalışır, böyüklərinə, valideynlərinə, qardaş və bacısına, hörmət etməyə başlayır.

***8. Cizgi filmləri uşaqlarda düzgün nitq, kommunikasiya bacarıqları formalaşdırır, yeni dil öyrənməyə həvəs yaradır.*** Cizgi filmlərində nitq normalarına riayət edərək fikirlərini ifadə edən personajları izləyərkən uşaqlarda düzgün nitq formalaşır. Bu, uşaqların düzgün nitq bacarıqlarına yiyələnmələrinə və vaxtında dil açmalarına effektiv təsir göstərir. Eyni zamanda, müəyyən yaşdan və mərhələdən sonra xarici dillərdə cizgi filmi izləyən uşaqlar həmin xarici dili də mükəmməl şəkildə, kiçik yaşlarından mənimsəməyə başlayırlar. Lakin burada bir mühüm məqamı təəssüflə qeyd etmək olar ki, hazırkı dövrdə ana dilində fikrini ifadə edə bilməyən, xarici dildə isə mükəmməl danışan kiçik yaşlı uşaqlara tez-tez rast gəlirik. Uşaqlar, öncə, ana dillərini mənimsəməli, daha sonra xarici dilləri öyrənməyə istiqamətlənməlidirlər [https://qebulol.az/cizgi-film].

Bütün bu sadalananlara nəzər saldıqda görürük ki, uşaqların inkişafında, düzgün formalaşmasında cizgi filmlərinin müsbət təsirləri heç də az deyil. Bu işdə valideynlər və tərbiyəçi-müəllimlərin nəzarəti mütləqdir. Valideyn və tərbiyəçi-müəllimlərin nəzarət etməli olduğu məqamlar, əsasən, aşağıdakılardır:

- “Uşaqlar nə izləyirlər?”
- “Uşaqlar necə izləyirlər?”
- “Uşaqlar cizgi filmi izləməyə nə qədər vaxt sərf edirlər?” [Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu)., 2022].

Beləliklə, qeyd olunanlara əsasən demək olar ki, məktəbəqədər yaşlı uşaqların cizgi filmlərini izləmələrinə gün ərzində müəyyən vaxt çərçivəsində icazə vermək lazımdır. Belə olan halda uşaqlar cizgi filmlərini izləməklə müəyyən müsbət keyfiyyətlərə yiyələnərək yalnız fayda əldə edəcəklər.

## Nəticə / Conclucion

Tədqiqat işində cizgi filmlərinin yaranma tarixi haqqında məlumatlar əldə edilmiş, müasir cizgi filmlərinin uşaq psixikasına mənfi və müsbət təsirləri araşdırılmış, məşğələlərdə cizgi filmlərindən istifadə yolları müəyyənləşdirilərək təhlil olunmuşdur.

Yaranma tarixi XX əsrin əvvəllərinə təsadüf edən cizgi filmi zəngin tarixi inkişaf yolu keçmiş, daim inkişaf edən mühitə təsiredici yeniliklər, qabaqcıl texnologiyalar və tendensiyalar irəli sürməklə formalaşmışdır. Animasiya öz yumoru, təxəyyülü və hekayələri ilə hər yaşda olan tamaşaçıları valeh edən, əl ilə çəkilmiş eskizlərdən müasir texnologiya tərəfindən yaradılmış şəkillərə qədər uzun bir yol keçmişdir. Hazırkı dövrdə uşaqlar üçün cizgi filmlərinə baxmaq asudə vaxt keçirtməyin ən unikal formasıdır. Uşaqlar parlaq şəkilləri, şən süjetləri sevdikləri üçün süjetli cizgi filmlərinə baxaraq müsbət emosiyalar alırlar. Valideynlər isə uşaqların cizgi filmlərinə baxmaları sayəsində özlərinə boş vaxt qazanırlar. Cizgi filmlərinin müsbət tərəflərindən faydalanan uşaqlar ictimai yerlərdə davranış qaydalarını pozmur, yaşıdları və böyüklərlə normal ünsiyyət sərgiləyirlər.

- erkən yaşda cizgi filmlərinə baxmaq nitq inkişafının ləngiməsinə səbəb olur;
- canlı ünsiyyət əvəzinə körpənin cizgi filmləri izləməyə daha çox vaxt sərf etməsi diqqət çatışmazlığı və diqqət dağınıqlığı riskini artırır [https://eudi.az].

Bəs 3 yaşdan yuxarı uşaqlar cizgi filmlərini izləmək üçün nə qədər vaxt sərf edə bilərlər? Uşaqların sağlamlığının qorunması məsələsi daim diqqət mərkəzində olmalıdır. Bu baxımdan, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən irəli sürülən normalar aşağıdakılardır:

- 0 yaşdan 3 yaşa qədər uşaqlara əqli inkişafı çox əhəmiyyətlidir. 3 yaşına qədər uşaqlar valideynləri ilə daha çox ünsiyyətdə olmalıdırlar.
- 3 yaşdan 7 yaşa qədər uşaqlar üçün – gün ərzində 30 dəqiqəyə qədər;
- 7 yaşdan 10 yaşa qədər uşaqlar üçün – gün ərzində 30-50 dəqiqə;
- 10 yaşdan yuxarı uşaqlar üçün – gün ərzində 1-3 saat [https://narinc.az].

**Məqalənin aktuallığı.** Aparılan araşdırmalardan məlum olduğu kimi cizgi filmlərinin uşaqların fiziki sağlamlığına və psixologiyasına müsbət, eyni zamanda mənfi təsirləri kifayət qədərdir. Bu səbəbdən, məktəbəqədər yaşlı uşaqların inkişafında cizgi filmlərinin rolu mövzusunda tədqiqat aparılaraq problemlərin işıqlandırılması müasir dövr üçün mühüm və aktual hesab olunur. Gün keçdikcə texnologiyanın inkişaf etməsi ilə əlaqədar olaraq mediaya, sosial platformalara çıxışımızın daha da asanlaşması bu problemi ikiqat aktual edir. Artıq demək olar

ki, hər bir evdə internetə və sosial platformalara rahat çıxış var. Buna görə də uşaqlar özləri istədikləri cizgi filmlərini ekran qarşısına çıxara və ona istədikləri qədər baxa bilərlər. Bu rahatlıq uşaqlarımızı inkişafa aparmaqla yanaşı, onları uçuruma da sürükləyə bilər.

**Məqalənin elmi yeniliyi.** Cizgi filmlərinin məktəbəqədər yaşlı uşaqların inkişafında oynadığı rolun araşdırılaraq mənfi, müsbət tərəflərinin diqqətə çatdırılması və bu istiqamətdə müəyyən təklif və tələblərin irəli sürülməsi məqalənin elmi yeniliyi kimi dəyərləndirilir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə təhlil olunan bütün məsələlər praktik əhəmiyyət kəsb edir və tərbiyəçi-müəllimlərə müsbət nəticələr əldə etməkdə müəyyən qədər yardım göstərə bilər. Məqalədən məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimləri, bu sahə üzrə təhsil alan bakalavrlar və tədqiqatçılar faydalana bilərlər.

## İstifadə olunmuş ədəbiyyat/ References

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu). (2022). Bakı.
2. Abbasov, A., Əlizadə, H. (2000). Pedaqogika. Bakı, "Renesans", s.146, s. 202
3. Bekman, S. (1990). "Okul Öncesi Eğitimi", Yaşadıkca Eğitim Dergisi, sayı:10, İstanbul, "Ya-Pa Yayınları".
4. Həsənov, A.M. (2000). Məktəbəqədər pedaqogika. Bakı, "Nasir" nəşriyyatı, 374 s.
5. Mursaqulova, R., Cəmilzadə, S. (2000). Uşaqlarda əxlaqi keyfiyyətlərin tərbiyəsi. Bakı.
6. https://qebulol.az/cizgi-film/
7. https://eudi.az
8. https://narinc.az.